## Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda son illər müşahidə olunan sürətli sosial-iqtisadi inkişaf dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlər linin müasirləşdirilməsini, demokratiyanın dərinləşdirilməsini, milli maraqların qorunması sahəsində qeyri-hökumət atlarının fəaliyyətinin təşviqini zəruri edir.

Dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında tərəfdaşlıq münasibətlərinin sabit və effektiv sisteminin yaradılması, qeyri-mət təşkilatlarının dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən problemlərin həllinə cəlb olunması, vətəndaş yyətinin inkişafının sürətləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:[1]

2.1. iki ay müddətində qeyri-hökumət təşkilatlarının məsələləri üzrə qurumun və qeyri-hökumət təşkilatlarına yardım fondunun ılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasının müddəalarının yerinə yetirilməsinə əti həyata keçirsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti öz səlahiyyətləri daxilində bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 iyul 2007-ci il
2288

### Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi

### KONSEPSİYASI

Azərbaycan Respublikasında ictimai həyatın demokratikləşməsinin əsas istiqamətlərindən biri vətəndaş cəmiyyəti institutlarının f etdirilməsidir. Ölkəmizin sürətli iqtisadi və sosial inkişafı vətəndaş cəmiyyətinin fəaliyyətinə kömək göstərilməsində dövlətin larını genişləndirir, qeyri-hökumət təşkilatlarını dəstəkləmək və təşviq etmək üçün dövlət siyasətinin təkmilləşdirilməsini ndirir.

Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin məqsədləri cəmiyyətimizdə yeni münasibətlər modelinin formalaşdırılması, daş cəmiyyəti institutlarının müasirləşdirilməsi, vətəndaş təşəbbüsünün artırılması, milli maraqların qorunması sahəsində qeyri-mət təşkilatlarının fəaliyyətinin təşviq edilməsi, onların sosial əhəmiyyətli problemlərin həllinə cəlb olunması, dövlət və cəmiyyətin fı üçün əhəmiyyət kəsb edən proqram və layihələrin maliyyələşdirilməsidir.

### I. AZƏRBAYCAN RESPUBLİKASINDA QEYRİ-HÖKUMƏT SEKTORUNUN VƏZİYYƏTİNİN TƏHLİLİ

Müstəqillik dövründə Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən ictimai birliklərdən, fondlardan və digər qeyri-hökumət atlarından ibarət qeyri-hökumət sektoru formalaşmışdır.

Bu proseslərin təhlili göstərir ki, ölkəmizdə qeyri-hökumət təşkilatlarının təşəkkülü bir neçə mərhələdən keçmişdir.

İlkin mərhələ qeyri-hökumət təşkilatlarının yaranmasında sistemliliyin olmaması və pərakəndəliklə xarakterizə olunur. Bundan dövlət tərəfindən qeyri-hökumət sektoruna münasibətdə ümumi yanaşma və prioritetlərin müəyyənləşməsi prosesi gedir.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra qeyri-hökumət təşkilatlarının keyfiyyət və kəmiyyət , eyni zamanda fəaliyyət növləri üzrə diferensiasiyası baş verir. Vətəndaş cəmiyyətinin fəaliyyəti ilə əlaqədar müvafiq qanunvericilik ı yaradılır. 2000-ci ildə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" yeni Qanun qəbul edilir. Qeyri-hökumət atları ilə bir sıra sahələrdə əməkdaşlıq həyata keçirilir, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə Qeyri-hökumət atlarının Təlim və Resurs Mərkəzi yaradılır.

Müasir dövrdə qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib ətlarından birinə çevrilir. Belə şəraitdə dövlət orqanları ilə qeyri-hökumət sektorunun bərabərhüquqlu tərəfdaşlıq prinsipləri ıda sıx əməkdaşlığı vətəndaş cəmiyyətinin inkişafı, demokratiyanın dərinləşməsi, qanunvericiliyin beynəlxalq standartlara ılaşdırılması və milli maraqların qorunması üçün böyük əhəmiyyət kəsb edir.

Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təhlili göstərir ki, hazırda müxtəlif istiqamətlər üzrə vətəndaş cəmiyyəti institutlarının t qədər sabit qrupları formalaşmışdır. Ölkədə qaçqın, məcburi köçkün, əlil və veteranların problemlərinin həlli sahəsində 73, hüquq fiəsi ilə bağlı 121, uşaq və gənclərlə bağlı 191, gender məsələləri üzrə 79, səhiyyə yönümlü 68, ekologiya sahəsində 77, iqtisadi nlü 218, sahibkarlıqla bağlı 63, təhsil, elm və texnika sahəsində 176, jurnalistlərin problemləri ilə bağlı 43, mədəniyyət və incəsənətlə 113 və digər təşkilatlar dövlət qeydiyyatından keçmişlər.

### II. QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİNİN ƏSAS PRİNSİP VƏ FORMALARI

Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin formalaşması və həyata keçirilməsi aşağıdakı prinsiplərə əsaslanır:

- qanunçuluq;
- tərəfdaşlıq - sosial problemlərin həllində, sosial siyasətin prioritetlərinin müəyyən olunmasında qeyri-hökumət təşkilatlarının və orqanlarının birgə iştirakı;
- şəffaflıq - dövlət tərəfindən maliyyə və digər dəstəyin təqdim olunmasında aşkarlıq və maraqlı qeyri-hökumət təşkilatları üçün natdan ümumi istifadə etmək imkanı;
- uzlaşdırma - qarşıya qoyulmuş məqsədlərə nail olunmasında və ümumi fəaliyyətin təşkili üsulları ilə bağlı razılaşdırılmış arın qəbulu;
- məsuliyyət - dövlət tərəfindən maliyyələşən proqramlar və layihələr üzrə təsdiq olunmuş müqavilələrin şərtlərinə ciddi riayət

ası.
"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qeyri-nət təşkilatlarına maliyyə və başqa formalarda yardım edə bilər. Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi məlumat, konsultativ, diki, təşkilati-texniki, maliyyə yardımı və digər formalarda həyata keçirilə bilər.
Qeyri-hökumət təşkilatlarına məlumat dəstəyi qeyri-hökumət sektorunun sosial problemlərin həlli sahəsində fəaliyyətinin kütləvi nasiya vasitələrində işıqlandırılmasını, Azərbaycanda qeyri-hökumət sektorunun inkişafı haqqında xüsusi rubrikaların, tematik və televiziya verilişlərinin yaradılmasını nəzərdə tutur.
Qeyri-hökumət təşkilatlarına konsultativ dəstək qanunvericilik və digər normativ hüquqi aktların izah edilməsində, iş metodları və nətləri, dövlət dəstəyinin alınması imkanları, ölkədə mövcud qeyri-hökumət təşkilatları və sair barədə məlumatın verilməsində olunur.
Metodiki dəstək metodiki tövsiyələrin, materialların, məlumat kitabçalarının hazırlanması və digər vasitələrlə həyata keçirilir.
Təşkilati-texniki dəstək qeyri-hökumət təşkilatları ilə birgə sosial əhəmiyyətli problemlərin həllinə yönəlmiş "dəyirmi masa"lar, arlar, konfranslar, təlimlər və digər aksiyalar təşkil etməklə həyata keçirilir.
Qeyri-hökumət təşkilatlarına maliyyə dəstəyi dövlət və cəmiyyət üçün əhəmiyyətli problemlərin həllinə yönəlmiş məqsədli am, layihə və tədbirlərin müsabiqə əsasında dövlət büdcəsindən maliyyələşməsini nəzərdə tutur.

### III. QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİNİN PRİORİTET SAHƏLƏRİ

Dövlət ilk növbədə aşağıdakı sahələr üzrə qeyri-hökumət təşkilatlarının təqdim etdikləri proqram və layihələrə üstünlük verir:
- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin xarici ölkələrdə və beynəlxalq atlarda təbliğ edilməsi;
- qaçqın və məcburi köçkünlərin hüquqlarının beynəlxalq təşkilatlarda və beynəlxalq məhkəmə orqanlarında müdafiə edilməsi;
- qaçqın, məcburi köçkün, *əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək* uşaqların və veteranların əmlərinin həll edilməsi;[2]
- azərbaycançılıq ideyasının təşviq olunması;
- Azərbaycanın dünya birliyinə inteqrasiya olunması;
- beynəlxalq təşkilatlarla və xarici ölkələrdə fəaliyyət göstərən qeyri-hökumət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsi;
- siyasi-hüquqi və vətəndaş mədəniyyətinin formalaşdırılması;
- vətəndaşların hüquqi biliklərinin inkişaf etdirilməsi;
- insan hüquq və azadlıqlarının təmin edilməsi;
- söz, fikir və ifadə azadlığının genişlənməsi;
- regionların sosial-iqtisadi inkişafının təmin edilməsi;
- təhsil, elm, texnika, mədəniyyət və incəsənətin inkişaf etdirilməsi;
- ətraf mühitin mühafizəsi;
- uşaq, qadın və gənclərin sosial, fiziki və mənəvi inkişafı;
- əhalinin sağlamlığının qorunması.

### IV. QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİNİN TƏMİN OLUNMASININ ƏSAS VASİTƏLƏRİ

**1. Qanunvericilik bazasının təkmilləşdirilməsi:**

Vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi ilə qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təkmilləşdirilməsinə və dövlət ları ilə qeyri-hökumət təşkilatlarının münasibətlərinin dərinləşməsinə yönəlmiş normativ hüquqi aktların təkmilləşdirilməsi.

**2. Dövlət orqanları və vətəndaş cəmiyyəti institutlarının əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi:**

- dövlət və vətəndaş cəmiyyəti arasında qarşılıqlı fəaliyyət problemlərinin həlli üçün effektiv dialoq vasitəsi olan vətəndaş larının sistematik keçirilməsi;
- cəmiyyətin demokratikləşməsi prosesinin dərinləşməsinə yönəlmiş dövlətlə qeyri-hökumət təşkilatlarının əməkdaşlıq forması qeyri-hökumət təşkilatlarının məsələləri üzrə qurumun yaradılması;
- dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə maliyyə dəstəyi göstərəcək qeyri-hökumət atlarına yardım fondunun yaradılması;
- vətəndaş cəmiyyətinin inkişafı proseslərini effektiv müşahidə etmək, əməkdaşlığa yönəlmiş proqramların həyata keçirilməsinin torinqini həyata keçirmək üçün milli informasiya-analitik şəbəkəsinin inkişaf etdirilməsi;
- vətəndaş cəmiyyəti institutları ilə əlaqədar məlumat bazasının yaradılması, eləcə də qarşılıqlı əməkdaşlığın forma və metodlarının yən edilməsi, effektiv fəaliyyət mexanizmlərinin formalaşdırılması üzrə dövlət qurumları üçün tövsiyələrin hazırlanması.

### V. DÖVLƏT VƏ CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTLİ PROBLEMLƏRİN HƏLLİNƏ YÖNƏLMİŞ MƏQSƏDLİ PROQRAM, LAYİHƏ VƏ TƏDBİRLƏRİN DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ ŞƏRTLƏRİ:

- dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında tərəfdaşlığa əsaslanan maliyyə-müqavilə münasibətlərinin laşdırılması;
- dövlət tərəfindən maliyyələşən proqram və layihələrin nəticələrinin qiymətləndirilməsi;
- müxtəlif sahələrdə milli fəaliyyət proqramlarının hazırlanması və həyata keçirilməsində dövlətlə qeyri-hökumət təşkilatları ıda əməkdaşlıq üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi.

**Yekun müddəalar**

Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası qeyri-hökumət təşkilatları ilə bağlı dövlət tinin istiqamətlərini, qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin əsas prinsip və formalarını müəyyən edir.
Bu Konsepsiya həmçinin qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin institusional mexanizmlərinin yaradılmasını, dövlət ları ilə vətəndaş cəmiyyəti institutlarının əməkdaşlığının təkmilləşdirilməsini, siyasi-hüquqi, vətəndaş mədəniyyətinin

laşdırılmasında qeyri-hökumət təşkilatlarının iştirakını və vətəndaş cəmiyyəti institutlarının beynəlxalq əməkdaşlıq istiqamətlərini də tutur.

Konsepsiya milli maraqların qorunması, Konstitusiya və qanunlara, dövlət rəmzlərinə hörmətin formalaşdırılması, eləcə də aycanın ərazi bütövlüyünün bərpası, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinin ıda fəal şəkildə təqdim edilməsi, qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, azərbaycançılıq ideyasının təbliğ edilməsi ində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təşviqini, ümumiyyətlə dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən əmlərin həllinə qeyri-hökumət təşkilatlarının cəlb olunması və belə layihələr üzrə onlara məlumat, metodiki, təşkilati-texniki, yə yardımının göstərilməsini prioritet kimi müəyyən edir.

Beləliklə, Konsepsiyada göstərilən Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarının inkişaf problemlərinin həlli, müvafiq ıvericilik bazasının təkmilləşdirilməsi dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında tərəfdaşlıq münasibətlərinin sabit və iv sisteminin yaradılmasına, eləcə də ölkədə vətəndaş cəmiyyətinin inkişafına xidmət edəcəkdir.

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 27 may 2008-ci il tarixli 762 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 373**)
2. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**
3. 14 avqust 2020-ci il tarixli **2211** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1064 )**
4. 18 avqust 2021-ci il tarixli **2864** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 19 avqust 2021-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 947)** *(Bu Sərəncam 2022-ci il iyulun 1-dən qüvvəyə minir.)*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

[1] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)** ilə 2-ci bəndində "**Prezidentinin İcra Aparatına**" sözləri "**Prezidentinin Administrasiyasına**" sözləri ilə əvəz edilmişdir.

[2] 27 may 2008-ci il tarixli 762 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 373**) ilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın III bölməsinin birinci hissəsinin dördüncü abzasında **"əlil"** sözündən sonra **", sağlamlıq imkanları məhdud uşaqların"** sözləri əlavə edilmişdir.

14 avqust 2020-ci il tarixli **2211** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1064 )** ilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası"nın III hissəsinin dördüncü abzasında "**əlil, sağlamlıq imkanları məhdud**" sözləri "**əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək**" sözləri ilə əvəz edilmişdir.